# Biologiya üzrə şagirdlərin yaradıcı təfəkkürünün inkişafında istifadə edilən sinifdənkənar iş və onun formaları

**Rufanə Qasımova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** rufa.qasimova94@gmail.com

**Rəyçilər:** b.ü.f.d., dos. T.Q. Abdullayeva,
ped.ü.f.d., dos. H.M. Hacıyeva

**Açar sözlər:** biologiya, sinifdənkənar, tədris, şagirdlər, tədbirlər
**Ключевые слова:** биология, внеучебная деятельность, обучение, ученики, события
**Key words:** biology, extracurricular activities, training, students, events

Orta ümumtəhsil məktəblərinin əsas vəzifəsi gəncləri həyatı və özünü anlaya bilən bir şəxsiyyət kimi yetişdirməkdən təşkil olunmuşdur. Ümumi təhsil fənləri həmin vəzifənin icra edilməsində ayrıca rol oynayır. Biologiya sözügedən fənlərdən biri olaraq canlılar aləmindən bəhs etməkdədir, məktəblilərə canlı təbiətin maddiliyi, qanunauyğunluqları, canlıların yaranması, quruluşu, yayılması, təkamülü, mühafizəsi, ən birincisi isə, biososial varlıq sayılan insanın öz orqanizminin forması və həyati xüsusiyyətlərinin öyrənilməsinə imkan yaradır. İnsanın daimi inkişafı və sağlamlığının qorunması ilə əlaqəli zəruri bilik, bacarıq və əməli vərdişlər verməkdədir.

Hazırki şəraitdə sinifdənkənar tədbirlərin inkişafı istiqamətlərinin məzmununu, yəni forma və üsullarla aşkar etmək üçün əməyə hazırlıq, əqli, əxlaqi, fiziki, estetik, iqtisadi və ekoloji tərbiyə, eyni zamanda insan hüquqlarına hörmətə əsasən hər birmək təbliilə bir neçə istiqamətdə iş aparılmalıdır. Birinci olaraq, şagirdlərdə tərbiyələndiricilik vəsilələrinin, xüsusəndə dərsdə və dərsdənkənar zamanlarda onların əməli fəaliyyətini vahid formada birləşdirməyin təsirli yolları meydana çıxarılmalı və bu, hər bir müəllimin (tərbiyəçinin), məktəb kollektivinin diqqət mərkəzində olmalıdır.

Sinifdən kənar iş öz müntəzəmliliyi, məzmunu, forması və çox növlülüyü ilə bir çox şəraitlər yaradır. Bu cəhətdən uşaq şəxsiyətinin formalaşması zamanı tərbiyə işi əsas yeri tutmaqdadır. Tərbiyə işinin praktik gerçəkləşdirilməsi təlimi, həmçinində problemi ehtiva edən tərbiyəvi məzmunlu sinifdən kənar işlər prosesində baş verir. Hal-hazırda lazımi qədər sinifdən kənar tərbiyəvi iş üsulları vardır. Son zamanlar məktəb praktikasında bu cür tədbirlərin qaydaya salınması üçün tərbiyəvi fəaliyyət növü olan sinifdənkənar və məktəbdən kənar iş formaları genişləndirilməkdədir [2, s.124]

Sinifdənkənar işlərin əhəmiyyətli təşkili üçün müxtəlif iş formalarından, üsul və vasitələrdən istifadə edilir ki, bu da cəmiyyətin tərəqqisinə xidmət göstərir.

Sinifdənxaric işlərin məzmunu dərsin məzmununun təkrarı olmamalıdır, o mədudlaşdırılmamalıdır. Ancaq şagirdin zehnini, bilik dairəsini genişləndirməlidir.

Şagirdlərlə sinifdənxaric tədbirlərin təşkil edilməsi təlim-tərbiyə prosesinin önəmli hissəsidir. Sözügedən iş gənc nəslin hərtərəfli inkişafı üçün və bioloji biliklərə çox yaxşı yiyələnməsinə xidmət göstərir. Sinifdənxaric işin əsas vəzifəsi şagirdlərin mənafelərinin, meyillərinin, maraqlarının hərtərəfli inkişafı ilə onların boş vaxtlarının faydalı təşkilindən yaranmışdır. O, məktəblə həyat arasındakı bağlayıcı bir həlqə hesab edilir. Həmin işlər dərsdə keçirilmiş, öyrənilmiş biliklərin qavranılmasında mühüm əhəmiyyət kəsb etməkdədir.

Sinifdənxaric işlərin könüllü şəkli məktəblilərin istədikləri işdə iştirak etmələrinə, öz maraq dairələrinə, istəklərinə müvafiq iş görmələrinə imkan yaradır. Bu da sinifdənkənar işləri gerçək-ləşdirənlərin qarşısına böyük məsuliyyət qoymaqdadır. Məktəbliləri sinifdənxaric işlərə cəlb edərkən çox zaman yaş və hazırlıq səviyyələri yox, işə maraq, meyil hissi əsas götürülür. Sinifdənkənar işlərə bəzi tələblər cəhətdən yanaşılmalıdır:

— Sinifdənkənar işlər məktəblilərin ideya-mənəvi tərbiyəsinə xidmət göstərməlidir.

— Şagirdlərin görüş dairəsini artırmalı, biliklərini inkişaf etdirməli, zehni və fiziki qüvvələrini inkişaf etdirməlidir.

Biologiya fənnində sinifdənkənar işlər adətən üç formada təşkil olunur: 1) qrup; 2) kütləvi; 3) fərdi formada.

Qrup formasında sinifdənxaric işlərə dərnəklər, fakültətiv məşğələlər ilə maraq kursları daxildir. Kütləvi sinifdənkənar tədbirlərə kinofilmlərə baxma, ekskursiya, biologiya gecələri, biologiya sərgiləri, meşəsalma həftəsi, quş günləri, yaşıllaşdırma ayı, sağlamlıq həftələri, xəstəliklərlə mübarizə günü kimi işləri göstərmək mümkündür.

Fərdi məşğələlərə: canlı guşə, tədris-təcrübə sahəsi və təbiət qoynunda həyata keçirilən məşğələlər, sinifdənkənar qiraət və başqaları daxil olunur. Biologiya fən-nindən dərnək məşğələsi təşkil olunarkən, ümumi bir "Gənc təbiətçilər" dərnəyi qur-maq, dərnəyə bütün siniflərdən uşaqları cəlb etmək mümkündür. Eyni zamanda paralel olan siniflərin şagirdlərindən təbiət elmlərinə, biologiyaya həvəsi olan şagirdlərin seçilməsi də olar. Məktəblilərin sayı çox olarsa, o zaman ayrı-ayrı "Gənc botaniklər", "Gənc zooloqlar", "Gənc fizioloqlar", "Gənc həkimlər", "Gənc bioloqlar", "Gənc ekoloqlar", "Gənc əczaçılar" adlı dərnəklər qurmaq mümkündür. Belə ki, paralel siniflər az olarsa, onda təkcə "Biologiya" dərnəyi təşkil edərək tərkibində müxtəlif şöbələr yaratmaq mümkündür [1, s. 165].

Biologiya fənnində sinifdənkənar işlərdə "Gənc təbiətçilər" dərnəyi xüsusi yer tutur. Bir çox məktəblərdə bu cür bir dərnək təşkil edilir və iş planına əsasən məşğələlər təşkil olunur. Dərs məşğələləri zamanı öyrədilməsi çətinlik yaradan, ancaq həyatda aktual olan problemlər dərnək məşğələlərində məktəblilərə çatdırılır. Dərnək məşğələləri ilə gənclər təbiət, təbiətdə olan hadisələr, onun qanun və qanunauyğunluqlarını çox yaxşı mənimsəyirlər. Şagirdlər almış olduqları nəzəri biliklərini həyatda tətbiq edərək, yaxşı nəticələr əldə etməyin üsullarını öyrənirlər [5].

Dərnək üzvləri ilk növbədə mədəni və yabanı bitkiləri, onların forması, məktəbin olduğu ərazidə bitmiş, geniş yayılan bitki nümunələri üzərində müşa-hidələrini təşkil edərək həmin bitkilər barədə biliklərə sahib olurlar. Həmçinin ərazidə, əsasən də ölkəmizdə bitən dərman bitkiləri, onların vacibliyi, işlədilmə qay-daları ilə də tanış olmaqdadırlar. Şagirdlər canlı guşə, tədris-təcrübə sahəsində bəzi təcrübə və müşahidələr təşkil etməkdədirlər.

Sinifdənkənar işlərdə, yəni "Gənc fizioloqlar", dərnəyində də "Qan köçürmə", "Qan dövranının kəşfi tarixi", "ölkəmizdə tibb elminin inkişafı" və s. mövzularda məruzə ilə təcrübələr həyata keçirilir. Ancaq tədrisdə başlıca aparıcı və mərkəzi yeri dərs tutmaqdadır.

Sinifdənkənar işlərin keçirilməsi çox da asan bir iş sayılmır. Ona ciddi hazırlaşmaq və çox zəhmət çəkmək, yaradıcı yanaşmaq lazım gəlməkdədir. Belə ki, məktəblərin hamısında bu cür tədbirlərin keçirilməsi halı yüksək səviyyədə deyil. Bir çox məktəblərdə tədbirlər heç keçirilmir, bir çoxunda da formal xarakter daşımaqdadır. Dərslərdə olduğu formada tədrisin bir hissəsi olan sinifdənxaric təd-birlərin keçirilməsində də yaxşı təcrübə toplayan, qabaqcıl pilot məktəblərimiz vardır. Həmin məktəblərdə şagirdlərlə müəllimlər sinifdənxaric tədbirlərə yaradıcı yanaşır, onları yüksək şəkildə təşkil edirlər.

**Məqalənin aktuallığı.** Sinifdən kənar iş öz müntəzəmliliyi, məzmunu, forması və çox

növlülüyü ilə müxtəlif şəraitlər yaradır və buna görədə uşaq şəxsiyətinin formalaşmasında mühüm rol oynayır. Məqalədə bir daha bu mövzuya toxunulmasi onun aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə məktəbliləri sinifdənxaric işlərə cəlb edərkən yaş və hazırlıq səviyyələrinə deyil, işəmaraq, meyil kimi hisslərin əsas götürülməli olduğu vurğulanır və bununla bağlı zəruri tələblərini zahı verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Hacıyeva G. Biologiyanın tədrisi metodikasından mühazirələr. Bakı: Mütərcim, 2016.
2. Salahov Ə. Biologiyanın tədrisi üsulu. Bakı: APİ, 1970.
3. Грин Н., Стаут У., Тейлор Д. Биология. М.: Мир. 1990.
4. Гусев М., Сеффер Г. Биологическое образование XXЫ века // Биология в школе, 200, № 1.
5. Biologiya tədrisi sisteminin formaları. http://azkurs.org/biologiya-tedrisi-sisteminin-formalar.html.


**Р. Касумова**

## Использование внеклассные работы и его формы в развитии творческого размышление учеников на уроках биологии

## Резюме

Внеклассные мероприятия должны быть тесно связаны с мероприятиями, охватываемыми уроками, с материалами программы. Они должны быть посвящены более важным проблемам в жизни. Внеклассные работы должны служить здоровью школьников. Таким образом, внеклассные работы может быть выполнена посредством обучения, помогая учащимся развивать умственную и духовную деятельность, улучшать качество их знаний и в конечном итоге формировать их целостным образом.

**R. Gasimova**

## In out-of-school hours work used development of the creative thinking of the pupils on biology and his forms

## Summary

Extracurricular activities should be closely related to the activities covered by the lessons with the program materials. They should be devoted to more important issues in life. Extracurricular activities should serve the health of school children. Thus, extracurricular work can be done through training, helping students develop mental and spiritual activities, improve the quality of their knowledge and ultimately shape them in a holistic way.

**Redaksiyaya daxil olub:** 30.11.2018